# Qəbələdə 20 Yanvar– Ümumxalq Hüzn Günü qeyd edilmişdir

20 yanvar 2022-ci il tarixdə Ümumxalq Hüzn Günü ilə əlaqədar rayon icra hakimiyyəti, hüquq-mühafizə orqanları, idarə, ictimaiyyətinin nümayəndələri Qəbələ Rayon Şəhidlər Xiyabanı kompleksini ziyarət edərək, şəhidlərin xatirəsini böyük ehtiram-





müəssisə, təşkilatların rəhbərləri və kollektivləri, Vətən müharibəsi şəhidlərinin ailə üzvləri, müharibə iştirakçıları, qazilər və rayon la yad etmiş, məzarların üzərinə və xatirə lövhələrinin qarşısına gül dəstələri düzmüş, şəhidlərin ruhuna dualar oxunmuşdur.

## Ümumtəhsil müəssisələrində 20 Yanvar Hüzn günü tədbirləri

Qəbələ rayonunun bütün ümumtəhsil müəssisələrində "20 yanvar Ümumxalq Hüzn günü"nə həsr olunmuş dəyirmi masa, seminar və mühazirələr, tarixi günə həsr olunmuş xüsusi dərslər keçirilmiş, şagirdlərin Şəhidlər Xiyabanına ziyarəti təşkil edilmişdir. Ümumtəhsil müəssisələrinin IX-XI sinif şagirdləri arasında "Qəhrəmanlar ölmür" adlı inşa müsabiqəsi, rəsm sərgisi keçirilmiş, qalib olan şagirdlər təhsil şöbəsi tərəfindən Diplomla təltif olunmuşlar. 18 yanvar 2022-ci il tarixdə Vəndam qəsəbə 2 saylı tam orta məktəbdə keçirilən elmi-praktik konfransda çıxış edən təhsil şöbəsinin müdiri A.Bayramova 20 Yanvar faciəsinin səbəblərindən, Azərbycan xalqının azadlıq mübarizəsindən danışmış, həmin gün xalqımıza qarşı törədilən bu qanlı və qəddar aksiyaya ulu öndər Heydər Əliyevin 1993-cü ildə ikinci dəfə hakimiyyətə qayıdışından sonra siyasi-hüquqi qiymət verildiyini qeyd etmişdir. Sonda məktəblilərin hazırladıqları ədəbi-bədii kompazisiyalar və səhnəciklər təqdim olunmuşdur.



# Müstəqillik tariximizin 20 Yanvar faciəsi

1990-cı il yanvarın 20-də baş vermiş qanlı hadisədən 32 il ötür. Hər il Ümumxalq Hüzn günü kimi geniş qeyd edilən 20 Yanvar faciəsi Azərbaycan Respublikasının müstəqilliyi uğrunda mübarizə tarixinə qəhrəmanlıq səhifəsi kimi daxil olmuşdur. Həmin gün Azərbaycan xalqının azadlıq uğrunda mübarizliyini təcəssüm etdirir.

1990-cı il yanvarın 19-dan 20-ə keçən gecə Bakıya yeridilən sovet qoşun hissələri küçələrə çıxıb öz etirazlarını bildirən dinc əhalini ağır texnika və müxtəlif tipli silahlardan atəşə tutdu. Fövqəladə vəziyyət elan olunanadək Azərbaycanın bir sıra rayonlarında cinayətlər törədildi. Fövqəladə vəziyyətin elan olunmadığı rayonlarda yanvarın 25-də Neftçala, yanvarın 26-da Lənkəranda 8 nəfər qətlə yetirildi. Ümumilikdə Respublikada 147 nəfər öldürülmüş, 744 nəfər yaralanmış, 841 nəfər qanunsuz həbs olunmuş, 200 ev və mənzil, 80 avtomaşın, o cümlədən təcili yardım maşınları, dövlət əmlakı və şəxsi əmlak məhv edilmişdir.

Azərbaycanın milli maraqlarına zidd addımlar atan o zamankı rəhbərlərin istefası tələbinin irəli sürülməsinə və xalqın qətiyyətlə Dağlıq Qarabağın Ermənistana birləşdirilməsinə qarşı çıxmasına görə, Azərbaycanı cəzalandırmaq üçün Kreml Qanlı Yanvar qırğınını törətdi. Öncədən hazırlanan bu təcavüzkarlıq aksiyasının məqsədi Azərbaycan xalqının demokratiya və milli azadlıq uğrunda mübarizəsini boğmaq, xalqı təhqir edərək ona mənəvi zərbə vurmaq idi.

Lakin bu hadisə xalqımızın mübarizlik ruhunu, əzmini və inamını qıra bilmədi, əksinə, xalqımız bu mübarizəyə daha böyük əzmlə davam etdi, milyonlarla insan bu vəhşiliyə qarşı birləşərək öz azadlıq istəklərini reallığa çevirdilər. Qanlı Yanvar hadisələri Azərbaycan milli kimliyinin formalaşmasına həlledici təsir göstərib, dövlət müstəqilliyinin bərpa edilməsində dönüş nöqtəsi olub. Faciədən sonra milli azadlıq hərəkatı tam siyasi reallığa çevrilib, dönməz xarakter alıb, xalq öz gələcəyini yalnız müstəqil Azərbaycanda görüb. 20 Yanvar hadisələri nəticəsində Azərbaycanda sovet imperiyası özünün bütün mənəvi və sosial dayaqlarını itirdi.

Bu tarixi gündə ilk siyasi qiymət dərhal ümummilli lider Heydər Əliyev tərəfindən verildi. Özü də imperiyanın mərkəzi - Moskva şəhərində. 1990-cı il yanvarın 21-də Sovet rejiminin qadağalarına rəğmən, həyatını təhlükə qarşısında qoyaraq Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gələn ulu öndər Heydər Əliyev qanlı faciənin təşkilatçılarını dünya ictimaiyyəti qarşısında ittiham etdi. Cəsarətli bəyanat verərək əliyalın xalqın qırılmasının hüquqa, demokratiyaya, humanizmə zidd olduğunu vurğuladı. Moskvanın və respublika rəhbərlərinin günahı üzündən yol verilmiş kobud siyasi səhv kimi ifşa etdi.

Qeyd etmək yerinə düşər ki, Ulu öndər Heydər Əliyevin bu bəyanatı təkcə baş verənlər haqqında ölkəmizdən kənarda yaşayanları məlumatlandırmırdı, bu bəyanat hər şeydən əvvəl 20 Yanvar faciəsinin əsl siyasi-hüquqi qiyməti idi. Özü həyatının ən təhlükəli dövrlərindən birini yaşamasına baxmayaraq, bu böyük insan xalqına qarşı çıxmasına, ona yönələn ədalətsizliyə qətiyyətlə qarşı çıxmağı bacardı.

Amma təəssüflər olsun ki, nə Azərbaycanın o zamankı hakimiyyəti, nə də bu hakimiyyətə can atan həmin dövrün müxalifəti bu faciənin əsl qiymətinin verilməsi istiqamətində heç bir addım atmadı. Məsələn, törədilmiş cinayət və onun nəticələri göz qabağında olduğu halda, respublikanın həmin dövrdəki rəhbərliyi baş vermiş faciənin mahiyyətini hər vasitə ilə ört-basdır etməyə cəhd göstərirdi. Nə qədər ikrah hissi oyatsa da, bu bir həqiqət idi ki, o dövrki respublika rəhbərliyi, hətta şəhidlərin-20 Yanvar qurbanlarının dəfn mərasiminə gəlməyə belə lüzum görməmişdi. Bu isə həmin vaxt Azərbaycanda xalqa yad bir hakimiyyətin olduğunu bir daha təsdiqləyirdi.

Yeri gəlmişkən, bu hadisələrdən sonra xalqımız daha bir gerçəkliyin də şahidi oldu. Xalqın mübarizəsini, tökülən qanı siyasi niyyətləri üçün alətə çevirən Azərbaycan Xalq Cəbhəsinin başında duranların iç üzü yavaş-yavaş açılmağa başlamışdı. Belə ki, 20 Yanvar hadisələrinə siyasi qiymət verilməsi tələbi ilə dəfələrlə çıxış edən Azərbaycan Xalq Cəbhəsi hakimiyyətə gəldikdən sonra, daha dəqiq desək, AXC-Müsavat hakimiyyəti zamanı nədənsə bu mövzu unudulmağa başlandı. Onlar hakimiyyətdə olduğu dövrdə faciəyə siyasi qiymət vermək üçün öz imkanlarından istifadə etmədi.

Beləliklə, hadisələrdən uzun müddət keçsə də, keçmiş SSRİ-nin və Azərbaycanın rəhbərliyi tərəfindən xalqa qarşı törədilmiş ağır cinayət açılmamış qaldı. Hələ Azərbaycanda Sovet hakimiyyəti mövcud olduğu dövrdə 20 Yanvar faciəsi ilə bağlı olan və geniş xalq kütləri tərəfindən yığılıb Dövlət İstintaq Komissiyasına təhvil verilmiş konkret dəlil və sübutlar qəsdən Azərbaycandan çıxarılıb aparıldı. O dövrdə Azərbaycanın prokurorluq və hüquq-mühafizə orqanları müvafiq istintaq tədbirlərini həyata keçirmədi, hətta əksinə, 20 Yanvar faciəsi ilə bağlı bir sıra məxfi sənədlər, o cümlədən, mühüm arxiv sənədləri bütövlükdə və ya qismən məhv edildi.

Şübhəsiz, 20 Yanvar tarixdə bir faciə, dəhşətli bir terror aktı kimi qaldı. Amma bununla bərabər, Prezident İlham Əliyevin də vurğuladığı kimi, 20 Yanvar günü həm də Azərbaycan tarixinin qəhrəmanlıq səhifəsidir. Həmin məşəqqətli gündə hədələrlə, təhdidlərlə, ölümlə üz-üzə dayanmasına baxmayaraq, xalqımız, müstəqillik, azadlıq uğrunda lazım gələndə şəhid ola biləcəyini də göstərdi. Elə buna görə də, 20 Yanvar faciəsi Azərbaycan xalqının yaddaşından heç vaxt silinməyəcək, Şəhidlərimizin əziz ruhu daim anılacaq, onların əziz xatirəsi Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq.

**"Qəbələ"**

## Qəbələdə səhiyyə işçisi rayon icra hakimiyyəti tərəfindən Fəxri Fərmanla təltif edilmişdir



30 dekabr 2021-ci il tarixdə Qəbələ MRX Publiq Hüquqi Şəxsində 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəyliyi günü və Yeni il münasibətilə tədbir keçirilmişdir. Tədbirdə RİH başçısının müavini Ətayə Osmanova iştirak edərək, COVİD-19-a qarşı mübarizədə və peyvəndləmədə göstərdikləri fədakar əməyə görə səhiyyə işçilərinə təşəkkürünü bildirmişdir. Bu sahədə xüsusi fərqlənən MRX PHŞ-in drektorunun əhaliyə tibbi xidmət üzrə müavini Cavanşir Məlikov RİH başçısı tərəfindən Fəxri Fərmanla təltif edilmişdir. Tibb işçiləri onlara göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıq etmiş, bundan sonra da vətəndaşların sağlamlığı keşiyində ləyaqətlə dayanacaqlarını və COVİD-19-a qarşı ölkəmizdə gedən böyük mübarizə işlərində fəal iştirak edəcəklərini bildirmişlər.